*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin* ELMİ ƏSƏRLƏRİ № 25, 2018
УЧЁНЫЕ ЗАПИСКИ*Азербайджанского Государственного Университета Культуры и Искусств* № 25, 2018
SCIENTIFIC NEWS *of Azerbaijan State University of Art and Culture* № 25, 2018

**UOT 792.01**

***Fidan Qasımova***
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti***
***Az-1065, Bakı, İnşaatçılar prospekti 39***
***E-mail:*** fidanqasimova1881@gmail.com

# CƏLİL MƏMMƏDQULUZADƏNİN ƏSƏRLƏRİNDƏ FEMİNİZM İDEYALARI

**Xülasə:** Qadın azadlığı məsələsinə öz əsərlərində xüsusi yer verən Cəlil Məmmədquluzadə yarımçıq qalmış "Tərcümeyi- halım"əsərində yazırdı ki, "O vaxtlar arvadlarımızın əsarətdə olmaq söhbətləri təzə-təzə meydana atılmaq istəyirdi və birinci dəfə arvadları müdafiə edən sözlər Eynəli yoldaşımız vasitəsilə məşhur arvad azadlığı tərəfdarı Con Stüart Milin kitabında gördüm. O, kitabında sübuta yetirirdi ki, arvad azadlığına indiyədək qoyulan sərhədlərin hamısı gərək götürülsün". Məhz bu əqidəni paylaşan Cəlil Məmmədquluzadənin əsərlərinin ideyası konkret coğrafi ərazinin sosial-mənəvi reallığından qaynaqlansa da ümumbəşəriliyi ilə mənalıdır.

**Açar sözləri:** qadın, azadlıq, cəhalət, cəmiyyət, əsər.

Qadın azadlığı məsələsi cəmiyyətin siniflərə bölündüyü gündən meydana çıxmışdır. Sinifli cəmiyyətin hakim ideoloqları, dil xadimləri həmişə iddia və təbliğ etmişlər ki, guya qadın cinsi, əqli cəhətdən fitrətən qüsurlu yaranmış, ailə və cəmiyyətdə qadının hüquqsuzluğu və bərabərsizliyi guya allahın iradəsinə bağlı, əbədi və toxunulmaz bir məsələ olmuşdur. Bu sayaq çürük iddialara baxmayaraq Azərbaycan xalqı və onun qabaqcıl adamları qadının idrak və kamalına inanmış, qadına saf və səmimi münasibət bəsləmişlər. Qabaqcıl görüşlü dairələr feministlər hərəkatına kömək etmiş və qadın azadlığı uğrunda mübarizəyə yüksək qiymət vermişlər. Lakin keçən əsrin ortalarına qədər qadın azadlığı mövzusunda nəinki yazmaq, danışmaq cəsarət tələb edən bir iş idi və bu cəsarəti ilə seçilənlər arasında qadın azadlığı məsələsinə öz əsərlərində xüsusi yer verən Cəlil Məmmədquluzadə yarımçıq qalmış "Tərcümeyi- halım"əsərində yazırdı ki, "O vaxtlar arvadlarımızın əsarətdə olmaq söhbətləri təzə-təzə meydana atılmaq istəyirdi və birinci dəfə arvadları müdafiə edən sözlər Eynəli yoldaşımız vasitəsilə məşhur arvad azadlığı tərəfdarı Con Stüart Milin kitabında gördüm. O, kitabında sübuta yetirirdi ki, arvad azadlığına indiyədək qoyulan sərhədlərin hamısı gərək götürülsün" (6).

Cəlil Məmmədquluzadənin əsərlərində "Danabaş kəndinin əhvalatları" povestindəki Xudayar bəyin ərindən qalan mirasını ələ keçirmək üçün Zeynəbin, "Ölülər" əsərində isə guya savab iş adı ilə Şeyx Nəsrullaha ərə verilən Nazlı kimi

azyaşlı qızların başına gətirilən müsibətlər öz bədii əksini tapmışdır. " Ölülər"dəki Nazlının vəziyyətinin nə dərəcədə acınacaqlı olduğu Hacı Həsən ağanın öz arvadı ilə dialoqundakı "qız tayfası axmaq bir şeydir: xeyrini -şərini nə anlayır" (6) kəlmələrindən asanlıqla anlaşılır .

Tənqidçilərin haqlı olaraq qeyd etdiyi kimi "Cəlil Məmmədquluzdəni müəllif olaraq ,qadın ömrünün mövcudluq ideyası, mühüm sosial- mənəvi problem olaraq düşündürür və o, qəhrəmanın, eləcə də onu əhatə edən insanların həyat məsələlərini bədii təhlil süzgəcindən keçirir. "Məhz bu əqidəni paylaşan Cəlil Məmmədquluzadənin əsərlərinin ideyası konkret coğrafi ərazinin sosial-mənəvi reallığından qaynaqlansa da ümumbəşəriliyi ilə mənalıdır" (3). Belə ki, istər "Ölülər" də, istərsə də "Dəli yığıncağı"nda təsvir olunanların mövcud gerçəkliyin inandırıcı bədii cizgilərlə ortaya çıxması həm tragik, həm də komik şəkildə verilən situasiyalarda az qala göz yaşları içərisində qəhqəhələr şəkilində verilir. Belə ki, Şeyx Nəsrullahın ölü diriltməsi nə qədər absurddursa, bütünlükdə bir cəmiyyətin buna inanması da bir o qədər tragikdir" (3). Mövcud cəmiyyətin cəhalətinin ifşası kimi yaranan sosial ziddiyyətlər qadınların buradakı vəziyyətini, tragik ovqatını aşkarlayan müəllifin digər əsərlərindən fərqli olaraq bu pyesində qadınlara ayırdığı funksional əməl xətti elə bir fəallığı ilə seçilmir. Ümumilikdə götürsək, Cəlil Məmmədquluzadənin yuxarıda qeyd etdiyimiz əsərlərinin qadın tipləri o zamankı Azərbaycan gəncliyi üçün səciyyəvi sayıla bilər. Buradakı qadınlar niyyətləri və əməlləri baxımından müəyyən qədər yadda qalsalar da, həmin qadınlar müasir dünya modelində oturuşmuş ailə təsəvvürlərinə uyğun gəlmir.

"Dövr dəyişdikcə, yeni quruluşun mürəkkəb dolaylarında xarakterlərin daxili aləmində baş verən dəyişikliklər, ictimai həyatda yeni normaların formalaşması, elmi- texniki inkişaf, qadına, onun şəxsi aləminə tamamilə fərqli münasibət yaradır. Belə ki, əvvəlki dövrlərdə özünün bədii-etik məzmunu ilə poeziyada predmetləşdirilən qadın obrazı müasir ədəbi yaradıcılıqda daha zəngin xarakterik məzmun kəsb etdi. Və bu zaman, müasir qadın tipi daha geniş anlamda qəbul edilən mənəvi keyfiyyətlərin daşıyıcısı kimi xüsusi dəyər qazandı" (5).

Mövhümata qarşı üsyan, insanlıq ləyaqətini uca tutmaq, cəmiyyəti geriliyə çəkən hər şeyə qarşı mübarizənin zəruriliyi C.Məmmədquluzadənin "Dəli yığıncağı" əsərinin ali məqsədi kimi olduqca aktualdır.

Ədibin təqdim etdiyi cəmiyyətdəki iki qütb "ağıllılarla dəlilər" sanki sövdələşirlər. Buradakı dəlilər cəbhəsinin ən acınacaqlı və yadda qalan qadın obrazı Pırpız Sonadır. Əsərin gərgin hadisələr xətti boyu əyaniləşən xarakterləri, onların qarşılıqlı münasibətləri, niyyətləri və əməlləri müəllif ideyasının səslənməsinə faydası baxımından olduqca əhəmiyyətlidir. Həzrəti Əşrəf guya humanizm və xeyirxahlıq mövqeyindən çıxış edib, həmin vilayətdə abadlığı bərpa etmək üçün dəlilərə müalicəxana açmaq istəyir. Bura Lalbyuz adlı həkim çağrılır və şəhərin varlıları, hakim həzrət Əşrəfin qorxusundan çoxlu pul toplayırlar. Burada maddi hakimiyyətə sahib olanlarla mənəvi dünyaya sahib olanlar arasındakı yaşananlar qarşılaşdırılır, ağılsız güclülərin ağıllı zəiflər üzərində

hökümranlığı və qadınları oyuncağa çevirən məcburi siğə tələsi kimi eybəcər əməllər ifşa edilir.

Əsərdəki hadisələr müxtəlif məkanlarda baş versə də, müəllifin ədəbi-fəlsəfi ideyası nəinki zəifləmir, əksinə səhnədən-səhnəyə daha böyük vüsət qazanır. Burada verilən hadisələr "Ölülər"də olduğu kimi xalqımızın ictimai-mədəni tarixinin qanlı səhifələri kimi mahiyyətcə eybəcər, obrazlı ifadə edilsə də keçmişimizin feodal-patriarxal aləminin sosial-faciə faktı kimi yadda qalır.

## Ədəbiyyat:

**Azərbaycan dilində**

1. Azərbaycan tənqidi realist ədəbiyyatında qadın obrazı. Bakı: 2015
2. Cəfərov M. Hüseyn Cavid. Bakı: Azərnəşr, 1960
3. Əsgərova S. Azərbaycan tənqidi realist ədəbiyyatında qadın obrazı, Dissertasiyanın avtoreferatı\\ Bakı: 2015
4. İbrahimov M. Böyük demokrat. Bakı: 1957
5. Qarayev Y. Səhnəmiz və müasirlərimiz. Azərnəşr: 1972
6. Məmmədquluzadə C. Əsərləri IV cilddə. IV cild. Bakı: Öndər,2004
7. Təhmasib T. Cavid və teatr. Bakı: İşıq, 1988
8. Zamanov A. Dünənin səsi, bu günün nəfəsi / «Kommunist» qəzeti, 1981, 4 oktyabr
9. Zəka R. Cavid sənəti. Bakı: Bilik cəmiyyəti, 1981

**Rus dilində**

1. Ализаде М. Борьба без компромиссов. Баку: 1983, 24 ноября
2. Ибрагимов И. В семье Атаевых / Бакинский рабочий, 1954, 30 октября
3. Шариф А. Раздумия о драматургии Джалила Мамедгулузаде // Азербайджан, 1967

**Фидан Гасымова**

## Идеи феминизма в произведениях Джалила Мамедгулузаде

### Резюме

Автор статьи исследует идеи феминизма в творчестве выдающегося Азербайджанского драматурга Джалила Мамедгулузаде. В статье на примере произведений Дж. Мамедгулузаде, как «Мертвецы», «Моя биография» и т.д. обосновывается значимость его прогрессивных идей относительно свободы женщины.

**Ключевые слова**: феминизм, женщина, свобода, мышление, общество, произведение.

**Fidan Gasimova**

## Ideas of feminism in the works of Jalil Mammadguluzade

## Summary

The author examines the ideas of feminism in the works of the outstanding Azerbaijani playwright J. Mammadguluzade. In the article on the example of works by Jalil Mammadguluzade as "Dead", "My biography," etc. is explained the importance of his progressive ideas about the freedom of women.

**Keywords**: feminism, woman, freedom, mind, society, work.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 20.02.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 27.02. 2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 02.04. 2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru Fəridə Cəlilova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**